# Azərbaycan kənar qüvvələrin regiona müdaxiləsinə imkan verməyəcək

"Aprelin 5-də Brüsseldə keçirilən ABŞ-Aİ-Ermənistan birgə konfransında bir daha məlum oldu ki, Qərb Ermənistanı nəzarət altına alaraq özünün oyun meydançasına çevirmək istəyir. İştirakçıların iddia etdikləri kimi, görüşün əsas məqsədi Cənubi Qafqazda Ermənistanın inkişafını təmin etmək məqsədilə bu ölkəyə müəyyən vəsaitlərin ayrılması deyil. Bu iddialar Azərbaycanı qətiyyən qane etmir".



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Arzu Nağıyev deyib. Deputat bildirib ki, konfransın nəticəsi olaraq, Avropa İttifaqının Ermənistana 4 il müddətinə qrant formasında 270 milyon avro ayırmağı planlaşdırması məqsədli xarakter daşıyır: "Guya bu vəsait iqtisadiyyatın, eyni zamanda sahibkarlığın inkişafı üçün Paşinyan hakimiyyətinin həyata keçirəcəyi islahatlara dəstək vermək məqsədilə ayrılıb. Bundan başqa, ABŞ də İrəvana 65 milyon dollar həcmində yardım nəzərdə tutub. Bununla bağlı ABŞ-nin Dövlət katibi E.Blinken bildirib ki, əsas məqsəd Ermənistanın inkişafı üçün lazım olan islahatların həyata keçirilməsinə kömək etməkdir. Təbii ki, bu vəsaitlər o qədər də böyük həcmdə deyil, lakin Ermənistan bu qrantları almaqla müəyyən işlər görə və bunun müqabilində vəsait ayıran dövlət və təsisatı məmnun etməkdən ötrü qərəzli addımlar ata bilər".

Deputatın sözlərinə görə, Ermənistanda bununla bağlı artıq ciddi narahatıq hiss edilir. Erməni siyasətçiləri və iqtisadçıları zənn edirdilər ki, üçtərəfli görüşdə ölkəyə donor təşkilatlar cəlb edə və təxminən 2 milyard dollara yaxın vəsait toplaya biləcəklər. Beləliklə, hərbi büdcəni artıraraq yeni müharibəyə daha yaxşı hazırlaşacaqlar. Lakin bu, heç zaman alınmayacaq.

"5 aprel görüşü bir daha sübuta yetirdi ki, Azərbaycanın Vətən müharibəsində və ötən ilin sentyabrında həyata keçirdiyi antiterror tədbirlərində əldə etdiyi qələbələr dünyanın bir çox güc mərkəzini ciddi narahat edir. Lakin öz daxili və xarici siyasətini müstəqil yürütməkdə olan Azərbaycan Avropa İttifaqının, ABŞ-nin və digərlərinin riyakarlıqlarına bələddir. Biz yaxşı başa düşürük ki, İkinci Qarabağ müharibəsindən sonra xüsusilə fəallaşan ABŞ dünyanın müxtəlif bölgələrində həyata keçirdiyi neoimperialist siyasətini indi də Cənubi Qafqazda reallaşdırmağa çalışır. Bunun üçün əlindən gələn heç nəyi əsirgəmir və İrəvanla əlbir olmaq yolunu seçib", - deyə müsahibimiz söyləyib.

Arzu Nağıyev əlavə edib ki, bu gün Cənubi Qafqazda söz sahibi Azərbaycandır: "Ölkəmiz Qərb dairələrinin regiona daxil olmaq və burada möhkəmlənmək cəhdlərinin qarşısını almaq üçün lazımi tədbirlər həyata keçirir. Həmçinin Azərbaycan bununla təkcə özümüzü deyil, bütün regionu təhlükədən xilas edir. Bu məqamda Qərbin yalan vədlərinə aldanaraq fəlakətə düçar olmuş bəzi postsovet ölkələrinin təcrübəsinə nəzər yetirmək kifayətdir. Azərbaycan kənar qüvvələrin Cənubi Qafqazı istədikləri kimi idarə edə bilmələrinə heç vaxt imkan verməyəcək".

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 9 aprel, № 73.- S.6.